*Regionların sosial-iqtisadi inkişafı*

# Oğuz: dağ kəndinin sosial qayğıları



Rayon mərkəzindən qırxsəkkiz kilometr aralıda ünvan tapan Filfilliyə neçə illər bundan öncə getmək istəyəndə bir neçə saat vaxt ayırmaqla bərabər, həm də "Niva", "Qaz-469" markalı maşın axtarmalıydın. Belə olmayanda çox çətinliklərlə qarşılaşırdın. Səbəbi – Sincan kəndindən sözügedən Filfilliyə kimi olan yol çox bərbad idi, Qalaçaydakı körpü yararsız olduğundan çayı keçmək də daha bir ciddi problem yaradırdı. Amma onu da deyək ki, Filfilliyə gedəndən sonra onun göz oxşayıb, ürəkləri riqqətə gətirən təbiətindən, buz bulaqlarından su içməkdən, hündür qayalarının hörükləri olan şəlalərini seyr etməkdən, "Yumrudağ", "Çiçəkli" yaylaqlarını gəzməkdən, ən əsası da mehriban, qonaqpərvər, mərd, mübariz adamları ilə həmsöhbət olmaqdan doymaq bilmirdin.

Tarixi çox-çox qədimlərlə səsləşir bu kəndin. Bəlkə də onu üzük qaşı kimi dövrəyə alan dağların, qayaların özü qədər yaşı var Filfillinin. Qalaçay çayı öz dəlisovluğu ilə çox imtahana çəkib bu kəndi. Hətta vəziyyət o həddə çatıb ki, güclü sel daşqınlarından çox ziyan çəkən kənd sakinləri yurd-yuvalarından Oğuzun başqa ünvanlarına köç ediblər. Bax, bu gün Oğuz rayonunun Bayan kəndindəki Filfillilər məhəlləsi də bu cür olub yaranıb. Təkcə bu olubmu Oğuz rayonundakı Filfilli kəndinin problemləri? Sualımızı kənd bələdiyyəsinin sədri Akif Nəsirova ünvanlayanda aşağıdakı cavabları aldıq:

—Kəndin adamları içməli sudan da illər uzunu korluq çəkiblər. Uşaqlar köhnə, uyğunlaşdırılmış binada yerləşən məktəbdə təhsil alıblar. İmkanı olanlar da maşın almağa qıymayıblar. Başqa yerlərdə olan qohum-əqraba ilə gediş-gəliş əlaqəsinin çətinliyi bir yana, heç telefonla danışmaq imkanı da yox idi. İndi o günlər arxada qalıb. Bütün ölkədə olduğu kimi, rayonumuzda o cümlədən Filfillidə də bu kimi problemlərə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə gəlişindən sonra son qoyulmağa başlandı. Bu strategiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də müvəffəqiyyətlə davam etdirilir. Regionların sosial-iqtisadi inkişafına dövlət qayğısının artması sayəsində Filfillidə də sosial qayğılar ardıcıllıqla öz həllini tapır. Son 3-4 ildə bu iş daha da sürətlənib. İndi bu kəndin müasir standartlar səviyyəsində tikilən orta məktəbi var. Adamları məişət, rabitə, ticarət, səhiyyə obyektlərinin xidmətindən yetərincə bəhrələnirlər. Dəlisov Qalaçay çayının üstündən uzunluğu 313 metr, eni 10 metr olan keyfiyyətli körpü salınıb. Filfillidə artıq 130-a yaxın evdə telefon var. Hətta, bir çox kənd sakinləri internet xidmətindən də istifadə edirlər.

Kəndin sayılıb-seçilən, hörmət bəslənən ağsaqqalı kimi tanınan Məhəmməd Rəhimov bu barədəki fikirlərə əlavə edib dedi:

- Son 3-4 ildir ki, Oğuzun da, onun yaşayış məntəqələrinin də siması müqayisəolunmaz dərəcədə dəyişib. Kəndlərin çoxuna təbii qaz, içməli su xətti çəkilir, yollar qaydaya salınır, rayon rəhbərliyi ilə vətəndaşların ünsiyyəti qat-qat möhkəmlənib. Kəndimizin timsalında bunu aydın görürük. Rayon icra hakimiyyətinin başçısı Eyvaz Qurbanov kəndimizin qayğılarını öyrənmək üçün vaxtaşırı bizimlə görüşür.

Vaxtı ilə Sincandan Filfilliyə getmək yol sarıdan müşkül məsələ idisə, indi rayon mərkəzindən bura geci qırx dəqiqəyə gəlirsən. Müasir tələblərə cavab verən yolda son tamamlama işləri lap bu yaxınlarda başa vurulub. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ayrılan vəsaitlə inşa olunan bu yola görə nəinki filfillilər, həmçinin yoldan istifadə edən Sincan, Xaçmaz-Qışlaq və Xaçmaz kəndlərinin sakinləri də dövlətə öz minnətdarlıqlarını bildirirlər.

Kəndin ağsaqqalları ilə söhbətlərimizdən bir maraqlı məqamı da öyrəndik ki, bu kənddə doğulub boya-başa çatanlar, sonralar işləri, təhsilləri ilə yaşayış ünvanlarını dəyişən filfillilər öz yurd-yuvalarını heç vaxt unutmayıblar. Dünyasını dəyişənlərdən vaxtı ilə "Azneft"də yüksək vəzifədə çalışan Xalid Məmmədovun təşəbbüsü, dəstəyi ilə kəndə ilk dəfə içməli su xəttinin çəkildiyini xatırlatdılar. Söylədilər ki, sonradan bələdiyyə sədrinin yaxından köməkliyi ilə həmin su xətti yenidən təmir və bərpa olunub istifadəyə verilib. Son illərdə bu da tələbatı ödəmədiyindən kənddə içməli su əsas problemlərdən olmuşdu. Artıq bu problem də öz həllini tapır. Kəndə yeni, müasir standartlar səviyyəsində su xətti çəkilir. Bunun da ilk təşəbbüskarı və təşkilatçısı kənd bələdiyyəsidir. Bələdiyyə sədri bu barədə daha geniş bilgilərlə bizi məlumatlandırdı.

- Kəndin sosial problemlərin həlli üçün müəyyənləşdirilən 5 layihədə - su xəttinin təzələnməsi, tibb məntəqəsi üçün binanın tikintisi, kənddaxili 8,3 km yolun əsaslı təmiri, qəbiristanlıqda abadlıq işləri görülməsi, stadionda tikinti işlərinin başa çatdırılması kimi məsələlər öz əksini tapır. Biz də ilk olaraq içməli su xəttinin çəkilməsini tezləşdirdik. Bunun üçün "AZKİL" adlı şirkətlə müqavilə bağlanıb və artıq onlar neçə vaxtdır ki, bu işə başlayıblar. Kəndin şimalında "Qalaquyun" adlanan yerdən, qaynayan bulağın suyu əvvəlki xətlərin yenidən əsaslı bərpası, təzələnməsi sayəsində kəndə 3 istiqamətdən gətirilir. Ümumi məsafə altı kilometrə yaxındır. İndi kənddaxili işlər sürət və keyfiyyətlə aparılır. Kəndin ayrı-ayrı yerlərində 6 yerdə bulaq qoyulacaq və əhaliyə, həyətlərə paylanmaq üçün 16 çıxış veriləcəkdir. Artıq işin 80 faizi görülüb. Hazırda mənbədə 8 tonluq anbar quraşdırılır. Həyətlərə çəkilişi bələdiyyə özü aparacaq. Həyətlərdə sayğaclar qoyulacaq. Kəndin sosial qayğıları ilə bağlı digər layihələr də layiqincə həyata keçiriləcək.

Burada digər qayğılara, o cümlədən şəhid ailələrinə, müharibə veteranlarına, tənha və kimsəsizlərə diqqət də unudulmur. 1941-1945-ci illər müharibəsinə bu kənddən 112 nəfər gedib. Onların tən yarısı döyüş cəbhələrində vətənin azadlığı naminə sinələrini düşmən gülləsinə sipər ediblər. Altay Çiyniyev, Cavid Süleymanov kimi igidlər torpaqlarımızın erməni işğalçılarından müdafiəsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıblar. Hər bayramda veteranlar, şəhid ailələri, həmçinin az təminatlı 15 ailəyə sovqatlar aparılır, onlara digər maddi yardımlar göstərilir. Məktəblə əlaqələr ön planda saxlanılır. Yeni məktəb binasının həyətinə bələdiyyə tərəfindən bulaq çəkilmişdir. Dərs ili ərzində fərqlənən şagirdlərə bələdiyyə tərəfindən pul mükafatları verilir. Dağ kəndi həm də çox zəngin təbiətli turizm məkanıdır. Sahibkarları bu ünvana yönəltmək, onun potensialını hərəkətə gətirmək üçün tədbirlər görülür. Bu məqsədlə 32 hektar torpaq sahəsi ayrılıb. Artıq 6 nəfərə bu məqsədlə fəaliyyətə başlaması üçün sərəncam da verilib.

Dağ kəndindən qayıdanda yol bələdçimiz keçib gəldiyimiz Xaçmaz, Sincan, Padar, Kərimli kəndlərindəki sosial avadlıq işlərinə işarə verərək dedi:

- Gördüyümüz bu ürəkaçan mənzərələr son 3-4 ilin bəhrələridir. Asfalt yollar, yeni çəkilən təbii qaz kəmərləri, içməli su xətləri, məktəb binaları, digər sosial obyektlər, qısa zaman kəsiyində araya-ərsəyə gətirilib.

**Rasim AMANOV,**
**"Respublika".**